Tədbirdə Təhsil Nazirliyinin nümayəndələri, Şirvan şəhəri, Salyan, Neftçala, Saatlı, Sabirabad və Hacıqabul rayon təhsil şöbələrinin müdirləri, məktəb direktorları, müəllimlər və media nümayəndələri iştirak ediblər.

"Dəyirmi masa" iştirakçıları Dövlət Strategiyası çərçivəsində təhsilin inkişaf prioritetləri və keyfiyyətin təmin edilməsi barədə fikirlərini nəzərə çatdırıblar. Dövlət Strategiyasında nəzərdə tutulmuş müddəaların uğurla həyata keçirilməsi üçün ictimai dəstəyin əhəmiyyəti qeyd olunub, pedaqoji sahədə çalışanların müvafiq islahatlara hazır olmasının zəruriliyi vurğulanıb.

Müzakirələr zamanı geniş fikir mübadiləsi aparılıb, müəllimləri və ictimaiyyət nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

Səfər çərçivəsində, həmçinin Salyan şəhərindəki ümumtəhsil müəssisələrində çalışan ən yaxşı müəllimlərin tədris etdikləri "Açıq dərs"lər izlənilib.

Neftçala rayonunda yaşayan əməkdar müəllim, 65 illik pedaqoji təcrübəyə malik İmamverdi Əbilovla görüş keçirilib, onun ölkə təhsilinin gələcəyi ilə bağlı nikbin düşüncə və fikirləri maraqla qarşılanıb.